UOT378

***Nəzakət İbrahim qızı Zamanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*Orcid:000 0002 4033 8298*
https://doi.org/10.69682/azrt.2024.91(1).66-70

# MÜƏLLİMİN RİFAH HALININ TƏDRİSƏ TƏSİRİ

***Назакат Ибрагим гызы Заманова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ВЛИЯНИЕ БЛАГОПОЛУЧИЯ УЧИТЕЛЯ НА ПРЕПОДАВАНИЕ

***Nazakat Ibrahim Zamanova***
*teacher at the Azerbaijan State Pedagogical University*

# THE IMPACT OF TEACHER WELL-BEING ON TEACHING

**Xülasə.** Məqalədə III minillikdə rəqəmsal dünyada sürətli dəyişikliklər insanların arzusundan asılı olmayaraq informasiya cəmiyyətinin təzahür xüsusiyyəti kimi baş verdiyi diqqətə çatdırılır. Sürəti dəyişikliklərə fərdin və cəmiyyətin adaptasiyasında müəllimin rolunun danılmaz olduğu göstərilmişdir. Müəllimə sahib çıxmağı tədqiqatçıların dili ilə söylənilmişdir.
***Açar sözlər*** *informasiya cəmiyyəti, rəqəmsal, müəllimin statusu, müəllimin rifahı*

**Резюме.** В статье указывается, что быстрые изменения в цифровом мире в III-м тысячелетии произошли как проявление информационного общества, независимо от желания людей. Показано, что роль педагога в адаптации личности и общества к быстрым изменениям неоспорима. Взять на себя ответственность учителя было изложено на языке исследователей.
***Ключевые слова:*** *информационное общество, цифровые технологии, статус учителя, благополучие учителя*

**Summary.** In the article, it is pointed out that rapid changes in the digital world in the 3rd millennium occurred as a manifestation of the information society, regardless of people's wishes. It has been shown that the role of the teacher in the adaptation of the individual and society to rapid changes is undeniable. Taking ownership of the teacher was said in the language of the researchers
***Keywords:*** *information society, digital, teacher's status, teacher's reputation*

Müəllimlik peşəsinin tarixi insanlıq tarixi ilə üst-üstə düşür. Klassiklərdən tutmuş, günümüzə qədər müəllimlik peşəsi haqqında da söylənilən fikirlərdə olduğu kimi bu peşənin cəmiyyətə təsiri danılmazdır. Cəmiyyətin inkişaf alqoritmlərinə təsir gücünə malik bu peşənin bütün dövrlərdə rolu və funksiyaları mövcud olan dövrün tələbləri ilə dəyişsə də mahiyyəti dəyişməz olaraq qalır. Bu peşə dinamik, situativ olub eyni zamanda hər ölkənin ictimai, iqtisadi gücünü əks etdirən milli situativliyi də özündə əks etdirir.

Rəqəmsal dünyada informasiya cəmiyyətində sürətli dəyişikliklər baş verir. Milli iqtisadiyyat dünya iqtisadiyyatının, eyni zamanda müxtəlif ölkələrin təhsili də qlobal yəni dünya təhsilinin bir parçasına çevrilir. İnformasiya texnologiyaları insanları zaman və məkan məfhumundan asılı olmayaraq onları bir məkanda qovuşdurur. Bu cəmiyyətdə müəllimin rolu dəyişir və genişlənir. Müəllimin bilik inhisarçılığına son qoyulur. Kompüter və internet müəllimin daşıdığı ənənəvi funksiyaların bir hissəsini öz üzərinə götürür. Müəllim daha çox konsultant, koordinator, nəzarətçi rolunda çıxış etməyə başlayır. Müəllimdən öz biliklərini daim yeniləmək, təkmilləşdirmək, texnoloji yenilikləri çevik şəkildə mənimsəmək tələb olunur.

İnformasiya cəmiyyətinin tələbəsi də bu cəmiyyətdə tələbədən müstəqil öyrənmə, yeni biliklərə can atma vərdişləri sayəsində yaradıcı-

lıq və intellektual potensialın artırılması, müasir informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığı, müstəqil qərar qəbuletmə qabiliyyəti tələb olunur. Əlbəttə bütün bunlar müəllimin nəzarəti altında baş verir.

Böyük fürsətlər çağırışlar erası olan bu dövr maraqlı və cəzbedici görünsə də eyni zamanda təhdidləri də bərabərində gətirir [2].

III minillikdə rəqəmsal dünyada fürsətlər çağırışlar, eyni zamanda təhdidlər dövrü olan informasiya cəmiyyətində bu peşə sahiblərindən nələr gözlənilir?

Bu peşə sahiblərinin nə qədər məsuliyyət daşıdığı hansı səviyyədə məlumdur?

Fərdə cəmiyyətə təsir gücünə malik bu peşə sahiblərinin statusunu cəmiyyət müəyyən edilə bilinirmi?

Bu peşə sahiblərindən gözlənilən tələblərin limiti varmı?

Cəmiyyət bu peşə sahiblərinə nə qədər ədalətlidir?

Ümumiyyətlə bu peşə sahiblərinin rifah halının tədrisə təsirini hansı səviyyədə araşdırılıb?

III minillikdə baş verən sürətli dəyişikliklərdə, bəzi peşələr tarixə qovuşur, yeni peşələr, yeni ideyalar, dəyərlər yaranır. Müəllimlik peşəsinin əsas mahiyyəti dəyişilməz olaraq qalır. İnnovativ texnologiya onun işini asanlaşdıra bilər, yeni forma və metodlara rəng qata bilər amma bu peşənin əsas mahiyyətini dəyişdirə bilməz. Sürətli dəyişikliklərin cəmiyyətə düzgün adaptasiyasının təminatında elm təhsil müəssisələri əsas rol oynamaqla yanaşı bu yeniliklərin çatdırılmasında baş aktyor rolunu müəllim oynayır. Baş verən sürətli dəyişikliklər dövrü olan informasiya cəmiyyətinin təzahür xüsusiyyətlərini tədqiqatçılar: "Artıq əzələ gücü və enerji deyil, informasiya əsas rol oynamağa başlayır", [5] yaxud informasiya cəmiyyətini belə xarakterizə edir: "Əmtəə və xidmət standartlarının informasiya uğrunda müharibələri baş verir, əmtəə pullar əvəzinə, gətirib elektron informasiya əsas mübadilə vasitəsinə çevrilir[3]deyə- mülahizələrini irəli sürürlər. Həmçinin tədqiqatçıların dəyişikliklərə əsas səbəb olan internetin kütləvi istehsalı və informasiyanı cəld ,çevik, sürətli idxalı və ixracatçısı olan kütləvi informasiya vasitələrinə fikirlər bir mənalı deyil. ***Amerika tarixçisi və filosofu Mark Poster*** informasiya cəmiyyətinin əsasını təşkil edən İnternet haqqında bunları qeyd edir:

"İnternet vətəndaşı milli dövlətin zülmündən qurtararaq azad insana çevirir. "Eyni zamanda ***Amerikalı media tənqidçisi, sosioloq, yazıçı Herbert Şillerin*** informasiya cəmiyyətini:

"İnformasiya proseslərinin və texnologiyalarının inkişafı, ilk növbədə, bütövlükdə, cəmiyyətin deyil, özəl biznesin maraqlarına xidmət edir" – belə xarakterizə [1] edir. Belə bir dövrdə fürsətlər, təzadlar dövründə təhsil müəssisələrinin, onun obyekti –subyekti qarşısında hansı vəzifələr durur?

Dəyişikliklərin icrasında ilk növbədə müəllim dayanır. III minillikdə rəqəmsal dünyada müəllimin yeni tələblərə uyğun təlim və tədrisi gərəklidir .İnformasiya cəmiyyətində sürətli dəyişikliklər, təlim proqramlarına sığmaya bilər, daha doğrusu tərtib olunan proqramlar sürətli dəyişiklikləri qarşılamaq iqtidarında olmaya bilər. Bunlar isə öz növbəsində müəllimin icra edəcəyi işləri həm çətinləşdirir, eyni zamanda yerinə yetirməli olduğu işlərə kölgə də salmış da ola bilər. Müəllimdən dövlətin, cəmiyyətin və təhsil subyektlərinin də tələbi və gözləntiləri getdikcə artır. Bu tələblərlə müqayisədə müəllimin rifah halı, zəhmətinin dəyərləndirilmməsi ondan gözlənilən tələblərlə müqayisədə nə dərəcədə təmin edilir?

Müəllimin rifahı tədrisə necə təsir edə bilər? Müəllimdən təhsil alanın, təhsil obyektinin, təhsilin digər subyekti olan valideynlərin bir sözlə cəmiyyətin və dövlətin tələbi ondan tələbləri hədsiz çoxdur və artmaqda davam edir. Müəllimin iş qrafiki tədris etdiyi dərslə yekunlaşmır. Müəllimlərə sir deyil ki, müəllimin istənilən vaxtda onun işi davam edir. Dərsdən əlavə yaşadığı istənilən an onun sanki iş qrafikinə çevrilir, işi davam edir, heç bitmir. Bu peşənin xarakterik xüsusiyyəti onun dinamikliyi, elmi-yaradıcı və s. xüsusiyyətləri bu peşə sahiblərinin daima axtarışını tələb edir.

Bu real bir gerçəklikdir, verilmiş iş saatını icra edən hər bir müəllim sabahkı dərsini ən azından bir neçə dəfə əlavə iş saatında düşünür. İcra etdiyi dərs yükü ilə heç vaxt iş saatı ilə yekunlaşmır, bəzən istənilən an müəllim üçün iş saatı ola bilər.

Bil Gatesyeni sistem yaratmağı tövsiyə edən məşhur "Feedback" adlanan mükəmməl

çıxışı müəllimlər üçün qiymətlidir. "Müəllimlərimiz daha yaxşı yaşamağa layiqdirlər. Mövcud olan sistemimiz onlara ədalətli deyil." – deyə bu peşə sahiblərinin əməyindən bəhs edir [11]. Həyatının hər anını fiziki cəhətdən işdə olmasa belə fikrən iş üçün düşünən bu peşə sahiblərinin ölkələr üzrə əmək haqları araşdırmalar zamanı məlum olub ki, dünya üzrə ən yüksək maaş alan müəllimlər İsveçrənin təhsil müəssisələrində çalışır.

Ən yüksək maaş alan 20 ölkədə müəllimlərin ən yüksək orta aylıq əmək haqqının hesablandığı ölkələrin siyahısı.

1. İsveçrə – 7,617,68 avro
2. Lixtenşteyn – 6,142,57 avro
3. Danimarka – 5 958,68 avro
4. Amerika Birləşmiş Ştatları – 5,642,79 avro
5. Lüksemburq – 4,899,84 avro
6. Monako – 4,851,99 avro
7. Sinqapur – 4,707,35 avro
8. Almaniya – 4,566,30 avro
9. Norveç – 4,553,77 avro
10. Hollandiya – 4,346,65 avro
11. Avstraliya – 4,292,20 avro
12. Avstriya – 4,094,94 avro
13. Belçika – 4,043,28 avro
14. İsveç – 4,010,49 avro
15. Kanada – Avro 3,933,91
16. Finlandiya – Avro 3,922,97
17. İrlandiya – Avro 3,824,31
18. Fransa – 3,598,20 avro
19. Yeni Zelandiya – Avro 3,560,03
20. Böyük Britaniya – Avro 3,534,15 [6].

Tədqiqatlar göstərib ki, həftəlik dərs saatların miqdarı ölkələr üzrə müxtəlifdir. Böyük Britaniyada hər müəllimə 13 şagird, Finlandiyada 1 müəllimə 16 şagird düşür.. TALIS (Teaching and Learning International Survey) tədqiqatı göstərib ki, Böyük Britaniyada müəllimlər tədris ili ərzində orta hesabla həftədə 46 saat işləyirlər, bu isə müvafiq beynəlxalq normadan (38 saat) 8 saat artıqdır. Bununla belə, Britaniya müəllimləri sinifdə daha az vaxt keçirir, vaxtlarının böyük hissəsini başqa tapşırıqlara həsr edirlər. Finlandiyalı müəllimlər 32 saatlıq iş həftəsinə malikdir. İtaliyada isə müəllimlər həftə ərzində 29 saat işləyirlər [6].

Ölkəmizdə müəllimlərin ölkə başçısının qərarı ilə Azərbaycanda dövlət büdcəsindən maliyyələşən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları 2023-cü il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb. Nazir 2014-cü ildən bəri müəllimlərin orta aylıq əməkhaqqının artım dinamikasına nəzər yetirərək maaşların 267 manatdan 790 manata yüksəldiyini Elm və Təhsil naziri Emin Əmirullayev bildirib: "*Ötən il sertifikasiya imtahanında yüksək nəticə göstərən müəllimlər 1195 manat, uğur qazananlar 790 manat, sertifikasiyada iştirak etməyən heyət 760 manat maaş alır. Hər hansı artım olmasa belə, bütün müəllimlər sertifikasiyadan keçəndən sonra onların maaşı 790 manatdan 910 manata yüksələcək".*

Hazırda 4 müəllimdən biri 1000 manatdan yuxarı maaş alır və bu, onların dərs yükü və dərs saatına verilən qiymətdən asılı olaraq dəyişir. Son artımdan sonra müəllimlərin 23 faizi – 29573 nəfər müəllim 8 saat dərs aparır və 500 manata qədər maaş alacaq. Müəllimlərin 23 faizi – 67499-u 18 saat dərs yükünə sahibdir və fevral ayından 500-1000 manat məvacibi olacaq. 26 saat dərsi olanlar müəllimlərin 23 faizini təşkil edir və 29423 belə müəllimə 1000-1500 manat maaş veriləcək. 3103 müəllim 32 saat dərs aparır və 1500-2000 manat əmək haqqı alacaq. Ancaq onlar müəllimlərin cəmi 2 faizini təşkil edirlər. Məktəblərimizdə 216 müəllim 34 saat dərs aparır və bundan sonra bu dərsə görə onlar 2000 manat, hətta daha artıq əməkhaqqı alacaqlar/

Bundan sonra ediləcək artımları nəzərə alsaq, 2-3 il sonra, yəni sertifikatlaşdırma prosesi başa çatdıqda müəllimlərin orta aylıq əməkhaqqı 1000 manatdan yuxarı olacaq (Azərbaycan müəllimi 03 mart 2023).

Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının sxemi[7].

| **Sıra №-si** | **Təhsili** | **Bir stavka dərs yükü 18 saat olmaqla, aylıq vəzifə maaşı (manatla)** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **pedaqoji staj 3 ilə qədər olduqda** | **pedaqoji staj 3 ildən 8 ilə qədər olduqda** | **pedaqoji staj 8 ildən 13 ilə qədər olduqda** | **pedaqoji staj 13 ildən 18 ilə qədər olduqda** | **pedaqoji staj 18 ildən çox olduqda** |
| 1. | *Ali təhsilli* | 607 | 653 | 686 | 733 | 785 |
| 2. | *Orta ixtisas təhsilli* | 554 | 587 | 607 | 647 | 700 |

Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi[7]

| **Sıra №-si** | **Təhsilin pillələri və pedaqoji staja qoyulan tələblər** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|---|
| 1. | *Xüsusi hazırlıq keçmiş, tam orta təhsilli, pedaqoji stajı ən azı 5 ilə qədər* | 477 |
| 2. | *Xüsusi hazırlıq keçmiş, tam orta təhsilli, pedaqoji stajı 5 ildən çox; orta ixtisas təhsilli, pedaqoji stajı 5 ilə qədər* | 493 |
| 3. | *Orta ixtisas təhsilli, pedaqoji stajı 5 ildən 10 ilədək; orta hərbi təhsilli və ya ali təhsilli, pedaqoji stajı hər iki halda 5 ilə qədər* | 508 |
| 4. | *Ali təhsilli, pedaqoji stajı 5 ildən çox; orta ixtisas təhsilli, pedaqoji stajı 10 ildən çox; orta hərbi təhsilli, pedaqoji stajı 5 ildən çox; ali hərbi təhsilli, pedaqoji staja tələb qoyulmadan* | 539 |

Dünyada 85 milyona yaxın müəllim var: 9,4 milyonu məktəbəqədər; 30,3 milyon ilkin; 18.1 tam orta təhsil; 14.0 tam orta təhsil; və ali təhsildə 12,5 [6].

Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) dünya ölkələrində müəllim əməyinin xüsusiyyətlərinin genişmiqyaslı öyrənilməsinə dair və “Təhsil və Təlimin Beynəlxalq Tədqiqatı” (Teaching and Learning International Survey, TALIS) adlı hesabatın təqdimatında göstərilmişdir. [4].

Fərdə cəmiyyətə və onun formalaşmasında baş aktyor olan müəllimin əməyinin qiymətləndirilməsi hər kəsin maraq dairəsində olmalıdır. Hər kəsə təhsil verən cəmiyyətin alqoritmlərinə təsir gücünə malik olan bu peşə sahiblərindən heç bir qayğı əsirgəməməlidir. Onun statusunun qorunmasında dövlət, cəmiyyət maraqlı olmalıdır. Əgər inkişaf etmək istəyiriksə !!!

**Problemin aktuallığı**. Rəqəmsallıqda sürətli yeniliklər baş verir. Yeniliklərin çatdırılmasında və fərdin cəmiyyətin yeniliyə düzgün adaptasiyasını təşkil edən əsas fiqurlardan biri müəllimdir. Fərdin və cəmiyyətə təsir gücünə malik olan bu peşə sahiblərinin əməyinin qiymətləndirilməsində hər kəs maraqlı olmalıdır.

**Problemin elmi yeniliyi**. İlk dəfə olaraq ölkəmizdə müəllimin rifah halının tədrisə təsiri diqqətə çatdırılır və əməyinin qiymətləndirilməsi və statusunun müəyyən olunmasına çağırış edilir.

**Problemin praktik əhəmiyyəti.** Cəmiyyətin inkişaf alqoritmlərinə təsir gücünə sahib olan müəllimlərin rifah halı yaxşı olarsa yeniliyi vaxtında tətbiq edər inkişafımızı təmin edə bilərik.

**Ədəbiyyat:**


1. Əliquliyev R.M., Ələkbərov R.Q., Fətəliyev T.X. Elektron elm: cari vəziyyəti, problemləri və perspektivləri // İnformasiya texnologiyaları problemləri. 2015, № 2, -s. 4-15
2. Заманова Н.И. Пути развития образования в цифром мире. Причорноморський науко-дослидний институт економики та Іноваций Іновацийна педагогика, науковуй журнал вируск 34, том 1, 2021 с.752-756 3.Тоффлер, Э. Третая волна. – Москва: АСТ, – 2010. – 800 с.
3. TALIS (Teaching and Learning International Survey), OECD ( Əməkdaşlıq və İnkişaf Təşkilatı)
4. https://www.britannica.com.
5. (https://www.algas.lv/ru/top-zarplata/raspolozenije/top-20-strany-vysokaya-zarplata)
6. https://e-qanun.az/framework/33556
7. report.az/maliyye-xeberleri/azerbaycanda-bu-il-13-5-inflyasiya-qeyde-alinib/ /(10may 2023)

8. https://tehsil.biz/news/az/2830/Sinqapurhttps:
9. BMT-nin və onun ixtisaslaşmış qurumlarının informasiya cəmiyyətinə dair sənədləri, http://www.publicadministration.un.org/wsis10
10. bill-gatese-gore-gelecek-bes-sene-icinde-internet-en boyuk eitim kaynagi-olacak. html. [Elektron resurs] / ─ Türkiyə, ─ 2022.

**E-mail:** znazakat@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **Ə.M. Abbasov,**
*ped.ü.fəls.dok., dos.* **O.K. Alxasov**
**Redaksiyaya daxil olub:** 08.01.2024